Radil Fətullayev

# BEYNƏLXALQ MÜHASİBATLIĞA GİRİŞ

(IFRSəsasında)

İQTİSADİ ARAŞDIRMALAR
VƏ TƏDRİS MƏRKƏZİ

BAKI–2015

**Müəllif:** **Radil Fətullayev**
Beynəlxalq Mühasibatlığa Giriş (IFRS əsasında).
Beynəlxalq uçot və hesabatı sərbəst şəkildə
öyrənmək istəyənlər üçün vəsait.
Bakı, «Nurlar» Nəşriyyat Poliqrafiya Mərkəzi, 2015.
– 344 səh.

**Elmi redaktor:** **Vaqif Quliyev**
iqtisad elmləri namizədi, dosent

***Məsləhətçi qrup:*** **Fərid Abbaslı, İbad İbadov, Ülviyyə Fətullayeva**
İqtisadi Araşdırmalar və Tədris Mərkəzinin (İATM-in)ekspertləri

***Rəyçilər:*** **Mehdi Babayev**
Professional mühasib jurnalının baş redaktoru,
audit mütəxəssis

**Firudin Sultanov**
dosent, Qafqaz Universitetinin
"Mühasibat uçotu" kafedrasının müdiri

**Mirismayıl Seyidov**
Xəzər Universitetinin müəllimləri

**Zaur Əhmədov**
iqtisad elmləri namizədi
Azərbaycan Universitetinin müəllimi

**Xalid Kərimov**
iqtisad üzrə fəlsəfə doktoru (PhD),
Qarant Holdinqin maliyyə müdiri, ACCA üzvü

**Ruslan Atakişiyev**
iqtisad üzrə fəlsəfə doktoru (PhD), İqtisadi
Resursların Öyrənilməsi ictimai birliyinin sədri

**Abdulkərim Sadıqov**
Azərbaycan Dövlət İqtisad Universitetinin
"Mühasibat uçotu" kafedrasının müəllimi

Kitabda müasir dövrdə tətbiq olunan beynəlxalq mühasibat uçotu və hesabatının formalaşması mərhələləri, GAAP və IFRS-in mahiyyəti, nəzəri-metodoloji əsasları, tətbiqi prinsipləri, müxtəlif təsərrüfat əməliyyatlarının hesablarda qeydiyyatı, informasiyanın maliyyə hesabatı formalarında əks etdirilməsi qaydaları, həmçinin maliyyə hesabatının informasiyası əsasında təhlilin aparılması metodikası və sair məsələlər qısaca nəzərdən keçirilmişdir.

ISBN: 978–9952–490–88–6
© «İqtisadi Araşdırmalar və Tədris Mərkəzi (İATM)», 2015

# M Ü N D Ə R İ C A T

**Təqdimat** ........ **8**
**Kitabdan istifadə qaydaları** ........ **9-11**

**Fəsil 1. Məüssisənin fəaliyyəti və mühasibatlıq haqqında ilkin anlayışlar** ........ **12-31**
1.1. Müəssisənin mahiyyəti və formaları ........ 12
1.2. Müəssisənin daxili və xarici mühiti ........ 15
1.3. Müəssisənin strukturu və idarə edilməsi metodları ........ 15
1.4. Mühasibat uçotu nə üçün lazımdır? ........ 18
1.5. Maliyyə uçotu və idarəetmə uçotu nədir? ........ 19
1.6. Maliyyə uçotu və hesabatının əsası elementləri ........ 22
1.7. Maliyyə hesabatı formalarının qarşılıqlı əlaqəsi ........ 23
1.8. Mühasibin əsas vəzifələri ........ 26
1.9. Maliyyə bərabərliyində əməliyyatların əks etdirilməsi ........ 27

**Fəsil 2. Beynəlxalq uçot və hesabatın nəzəri – metodoloji əsasları** ........ **32-51**
2.1. Mühasibat uçotunun tarixi ........ 33
2.2. Dünya mühasibatlıq məktəbləri ........ 38
2.3. Beynəlxalq uçot və hesabatın konseptual əsasları ........ 43
2.4. İkitərəfli qeydiyyat konsepsiyası ........ 48
2.5. Uçot siyasətinin formalaşması və açıqlanması ........ 45

**Fəsil 3. Maliyyə hesabatı formaları ilə tanışlıq** ........ **52-66**
3.1. Maliyyə hesabatı haqqında ümumi anlayış ........ 52
3.2. Balans hesabatı, onun məqsədi tərkib elementləri ........ 53
3.3. ABŞ və Avropa standartlarına görə balansınforması ........ 56
3.4. Mənfəət və zərərlər haqqında hesabat (MZHH) ........ 59
3.5. Kapitalda dəyişikliklər haqqında hesabat ........ 61
3.6. Maliyyə hesabatına izahlı qeydlər ........ 65

**Fəsil 4.Maliyyə hesabatı formalarının hazırlanması mərhələləri və ikili yazılış texnikası** ........ **67-88**
4.1. Maliyyə hesabatının hazırlanması üsulları ........ 68
4.2. Maliyyə hesabatlarının hazırlanma mərhələləri ........ 68
4.3. T-hesabda və jurnalda əməliyyatların qeydiyyat ........ 70
4.4. Baş kitablara qeydin aparılması ........ 79
4.5. Sınaq balansının tərtib edilməsi ........ 83
4.6. Düzəliş qeydləri və düzəliş olunmuş sınaq balansı ........ 85

4.7. Mənfəət və zərərlər haqqında hesabatın hazırlanması ..................... 87
4.8. Kapitalda dəyişikliklər haqqında hesabatın hazırlanması ................ 88
4.9. Maliyyə vəziyyəti haqqında hesabatın hazırlanması........................ 88

**Fəsil 5. Hesablar Planı və hesabların təsnifatı ................................ 89-98**
5.1. Hesablar planı nə üçün lazımdır?.................................................... 89
5.2. Hesablar planının məntiqi əsası ...................................................... 90
5.3. Hesabların təsnifatı........................................................................... 91
5.4. MMUS-da hesablar planı ................................................................. 95
5.4. Kommersiya təşkilatlarında ən çox istifadəolunan hesablar ........... 97

**Fəsil 6. Müxtəlif tipli əməliyyatların ikitərəfli qeydiyyat üsulu ilə təsviri ..................................................................................... 99-120**
6.1. Təsərrüfat əməliyyatlarının ümumi təsnifləşdirilməsi ..................... 99
6.2. İnvestisiya (maliyyə) qoyuluşu əməliyyatları ................................ 100
6.3. Borc götürmə əməliyyatları............................................................ 102
6.4. Alışlar və xərclərin çəkilməsi əməliyyatları .................................. 103
6.5. Gəlirlərin əldə edilməsi əməliyyatları ........................................... 105
6.6. Əvvəlcədən ödəmə (avans) əməliyyatları ..................................... 106
6.7. Borcvermə və qaytarma əməliyyatları ........................................... 108
6.8. Mənfəətin bölüşdürülməsi əməliyyatları........................................ 109
6.9. Praktik tapşırıq ................................................................................ 111

**Fəsil 7. Düzəliş qeydləri və köməkçi hesabların bağlanması qeydləri ......................................................................... 121-135**
7.1. Düzəliş qeydlərinin mahiyyəti və növləri ..................................... 121
7.2. Uzunmüddətli və qısamüddətli aktivlərə düzəliş qeydləri ............ 122
7.3. Debitor borcları üzrə düzəlişlər...................................................... 123
7.4. Əvvəlcədən ödəmələrə düzəlişlər .................................................. 124
7.5. Öhdəliklər (kreditor borclar) üzrə düzəlişlər................................. 125
7.6. Müvəqqəti hesabların bağlanması və ya son qeydlər..................... 126
7.7. Düzəliş qeydlərinə aid praktiki tapşırıq ........................................ 129

**Fəsil 8. Uzunmüddətli maddi aktivlərin (əsas vəsaitlərin) uçotuvə hesabatda əksi ................................................... 136-158**
8.1. Uzunmüddətli aktivlərin mahiyyəti, təsnifatı və amortizasiyası.... 136
8.2. Uzunmüddətli aktivlərin ilkin dəyərinin müəyyən edilməsi və uçotu ........................................................................................ 140
8.3. Torpaq, tikili və avadanlıqlar üzrə məsrəflərin kapitallaşdırılması ................................................................................ 142
8.4. Uzunmüddətli aktivlərin amortizasiyasının uçotu ......................... 144

8.5. Uzunmüddətli aktivlərin balansdan silinməsi halları və onların uçot və hesabatda əks etdirilməsi ........................................................ 146
8.6. Uzunmüddətli aktivlərin amortizasiyasının hesablanması metodları ........................................................................... 148
8.7. Uzunmüddətli aktivlərin yenidən qiymətləndirilməsi və onun uçotu ........................................................................... 153
8.8. Əsas vəsaitlərin təmiri ilə bağlı məsrəflər .................................... 154
8.9. Praktiki tapşırıq (həlli ilə birgə) .................................................. 155

**Fəsil 9. Qeyri-maddi aktivlərin və qudvilin uçotu ..................... 159-166**
9.1. Qeyri-maddi aktivlərin mahiyyəti ............................................... 159
9.2. Qudvilin mahiyyəti ...................................................................... 160
9.3. Qudvilin hesablanması və uçotu ................................................. 161
9.4. Qeyri-maddi aktivlərin (Qudvilin) yenidən qiymətləndirilməsi və uçotu ........................................................................................... 164
9.5. Tədqiqat və təcrübə-konstruktor işləri üzrə məsrəflər .................. 165

**Fəsil 10. Ticarət əməliyyatlarının və ehtiyatların uçotu ........... 167-185**
10.1. Ticarət əməliyyatlarının mahiyyəti və uçotu ............................... 167
10.2. Ticarət əməliyyatları zamanı istifadə olunan sənədlər ................ 168
10.3. Ehtiyatların (inventory) mahiyyəti və təsnifatı ........................... 168
10.4. MHBS 2 “Ehtiyatlar” ................................................................. 169
10.5. Satılan malların xərclərinin hesablanması qaydası ..................... 170
10.6. Ehtiyatların uçotu sistemləri ....................................................... 175
10.7. Praktikinümunələr (həlli ilə birgə) .............................................. 179

**Fəsil 11. Ehtiyatların maya dəyərinin hesablanması metodları ............................................................................. 186-193**
11.1. Ehtiyatların maya dəyəri nə üçün hesablanır? ............................ 186
11.2. Ehtiyatların maya dəyərinin hesablanmasının 4 metodu ............ 187
11.3. FİFO metodu ilə maya dəyərinin hesablanması .......................... 188
11.4. LİFO metodu ilə maya dəyərinin hesablanması .......................... 190
11.5. Orta maya dəyəri metodu ilə maya dəyərinin hesablanması ........ 191
11.6. İnflyasiya şəraitində maya dəyərinin hesablanması metodları ..... 193

**Fəsil 12. Debitor borcları, ümidsiz borclar və debitor xarakterli sair aktivlərin uçotu ..................................................................... 194-209**
12.1. Debitor borclarının mahiyyəti və növləri .................................... 194
12.2. Debitor borclarının uçotu və kontrol hesablar ............................ 196
12.3. Ümidsiz və şübhəli borclar ......................................................... 198
12.4. Ümidsiz borcların birbaşa silinmə metodu ilə uçotu ................... 199

12.5. Ümidsiz borcların ehtiyat metodu ilə qiymətləndirilməsi və uçotu ........ 200
12.6. Ümidsiz (şübhəli) borclar üzrə xərclərin qiymətləndirilməsi metodları........ 203
12.7. Ümidsiz borcların bərpa edilməsinin uçotu ........ 206

**Fəsil 13. Valyuta məzənnələrinin uçotu və hesabatda əksi ....... 210-218**
13.1. Valyuta məzənnəsinin mahiyyəti və ilkin anlayışlar ........ 210
13.2. Valyuta növlərinin uçotu hansı hesablarda aparılır?........ 211
13.3. Valyuta məzənnəsindən yaranan gəlir və xərclərin uçotu və hesabatda əks etdirilməsi ........ 212
13.4. Dövrün sonunda xarici valyutaların dəyərləndirilməsi və spot məzənnə ........ 215

**Fəsil 14. Kreditor borclarının və digər öhdəliklərin uçotu və hesabatda əks etdirilməsi ........ 219-234**
14.1. Öhdəliklərin mahiyyəti və növləri ........ 219
14.2. Kreditor borclarının mahiyyəti və uçotu ........ 221
14.3. Tikinti müqavilələri üzrə kreditor borclarının uçotu........ 222
14.4. İcarə müqavilələri üzrə kreditor borclarının uçotu vəhesabatda əksi.. 223
14.5. Gələcək dövrün gəlirlərinin və avansların uçotu ........ 225
14.6. Vergi və sair məcburi ödənişlərin uçotu və hesabatda əks etdrilməsi ........ 226

**Fəsil 15. Qiymətləndirilmiş öhdəliklərin uçotu ........ 235-250**
15.1. Qiymətləndirilmiş öhdəliklərin, şərti öhdəliklərin və şərti aktivlərin mahiyyəti........ 235
15.2. Qiymətləndirilmiş öhdəliklərin tanınması və uçtu........ 236
15.3. Zəmanətin mahiyyəti, müəyyən edilməsi və uçotu........ 238

**Fəsil 16. Mənfəət vergisinin və təxirə salınmış vergi aktivlərinin və öhdəliklərinin uçotu ........ 241-265**
16.1. Vergi xərclərinin mahiyyəti ........ 241
16.2. Mənfəətin mahiyyəti və növləri ........ 243
16.3. Mənfəət vergisi necə hesablanır?........ 244
16.4. MHBS və MMUS-da mənfəət vergisi ........ 245
16.5. Cari mənfəət vergisinin uçotu........ 247
16.6. Uçot mənfəəti və vergi tutulan mənfəət arasındakı fərqlər........ 250
16.7.Daimi fərqlərin mahiyyəti və uçotu ........ 251
16.8. Müvəqqəti fərqlər və təxirə salınmış vergi ........ 253
16.9. Təxirə salınmış mənfəət vergisinin uçotuna aid nümunələr ........ 254

**Fəsil 17. İstehsalməsrəflərinin uçotu və hesabatda əks etdirilməsi ........ 266-280**
17.1. Xərclərinin mahiyyəti və ümumi təsnifatı ........ 266
17.2. İstehsalat məsrəflərinin strukturu və uçotu ilə bağlı bəzi mühasibat yazılışları ........ 270
17.3. İstehsalatməsrəflərinin və məhsulun maya dəyərinin hesablanmasının bəzi düsturları ........ 273
17.4. İstehsal məsrəflərininuçotu və hesabatda əksinə dairbəzi nümunələr ........ 275

**Fəsil 18. Pul vəsaitlərinin hərəkəti haqqında hesabat ........ 281-303**
18.1. Pul vəsaitlərinin hərəkəti haqqında hesabatın (PVHHH) hazırlanması məqsədləri ........ 281
18.2. Amerika standartlarına görə PVHHH-nin strukturu ........ 282
18.3. MHBS 7-də PVHHH-nin strukturu ........ 283
18.4. Mühasibat bərabərliyi və PVHHH ........ 285
18.5. Pul vəsaitlərinin hərəkəti haqqında hesabatın hazırlanması metodları ........ 288
18.6. PVHHH-nın hazırlanmasına aid praktiki nümunələr ........ 299

**Fəsil 19. Maliyyə hesabatının təhlili ........ 304-315**
19.1. Maliyyə hesabatının təhlilinin məqsədləri ........ 304
19.2. Maliyyə hesabatının təhlili metodları ........ 305
19.2.1.Üfüqi təhlil ........ 305
19.2.2. Trend təhlili ........ 308
19.2.3. Şaquli təhlil ........ 309
19.3. Maliyyə hesabatının əmsallar vasitəsilə təhlili ........ 311
19.3.1.Likvidlik əmsalları ........ 311
19.3.2.Dövriyyə əmsalları ........ 312
19.3.3.Rentabellik əmsalları ........ 314

**ƏLAVƏLƏR ........ 316-340**
Məsələ 1 ........ 316
Məsələ 2 ........ 319
Kommersiya təşkilatları üçün MMUS üzrə Hesablar planı ........ 323
Beynəlxalq mühasibat uçotu və hesabatına dair terminoloji lüğət ........ 331

**İstifadə olunmuş ədəbiyyat siyahısı ........ 341-243**

# TƏQDİMAT

Hörmətli oxucular!

Sizə təqdim olunan bu kitab beynəlxalq mühasibatlığı daha asan və sadələşdirilmiş üsulla öyrənmək məqsədi ilə yazılmışdır. Ümid edirik ki, kitabla tanışlıqdan sonra, sizin uçot və hesabata baxış tərziniz və mövqeyiniz dəyişəcək, beynəlxalq uçot və hesabat sisteminin işlədiyiniz müəssisədə tətbiq edilməsində sizə yardımçı olacaqdır.

Maliyyə uçotu üzrə müxtəlif mövzulardan ibarət olan bu kitab məzmun etibarilə dərslik səviyyəsindədir. Fikrimizcə, kitab oxucunun maliyyə hesabatlarını asan bir şəkildə hazırlaya bilməsi üçün mühüm bir vəsait ola bilər. Kitaba həmçinin idarəetmə uçotuna aid olan xərclərin təsnifatı və istehsalat məsrəfləri barədə də mövzu daxil edilmişdir.

Qeyd edək ki, kitabın yazılmasının çox maraqlı bir tarixçəsi vardır. Belə ki, 2006-cı ildə köhnə mühasibatlıq sahəsində dərs keçdiyimiz 1 tələbəyə debet və kreditin mahiyyətini heç cürə başa salmaq mümkün olmurdu. O dövrdə beynəlxalq mühasibatlıqla bağlı yenicə öyrəndiyimiz bir üsulla debet və kreditin mahiyyətini izah etməyə çalışdıq. Baxdıq ki, hər şey birdən dəyişdi və tələbə artıq anlamağa başladı. Hətta “müəllim, bu nə asan üsuldur” dedi. O gündən sonra köhnə mühasibatlıqdan dərs keçməyi dayandıraraq, yeni metodologiyanın daha dərindən öyrənilməsi qərarına gəldik. Öyrənmə zamanı hazırladığımız mühazirələr bu kitabın ərsəyə gəlməsi ilə nəticələndi. Ümid edirik bu kitab sizlər üçün də mühasibatlığın öyrənilməsində daha sadə asan və sadə dildə yazılmış bir vəsait olacaqdır.

Kitabın hazırlanması prosesində həmçinin Azərbaycan Mühasiblər Assosiasiyasının (AMA) rəhbərliyi və mütəxəssisləri ilə mütəmadi əlaqə yaradılmış və fikir mübadiləsi edilmişdir.

Sonda onu da qeyd edək ki, kitabda tərtibat və texniki nöqteyi-nəzərdən müəyyən qüsurlar ola bilər. Ona görə də hər zaman oxucuların irad və təkliflərini qəbul etməyə hazırıq. Sizin irad və təkliflərinizi inşaAllah növbəti nəşrlərimizdə nəzərə almağa çalışacağıq.

Əlaqə telefonları: 012 480 28 45, Mob: (050) 531 03 81, (055) 203 07 85;

radilfatullayev@gmail.com

MÜƏLLİFLƏRDƏN

# KİTABDAN İSTİADƏ QAYDALARI

## Kitab kimlər üçündür?

"Beynəlxalq mühasibatlığa giriş" kitabı maliyyə, mühasibat uçotu, audit, konsaltinq sahəsində çalışan, tədris edən və eləcə də bu sahələri öyrənən şəxslər üçün Beynəlxalq Mühasibat Uçotunun Əsaslarının öyrədilməsi məqsədi ilə nəşr olunmuşdur. Siz bu kitabdan həm sərbəst öyrənmə vasitəsi, həm də müəllimlə - fərdi və həmçinin qrup halında təlimlərin keçirilməsi zamanı dərs vəsaiti kimi istifadə edə bilərsiniz.

## Kitabın strukturu:

"Beynəlxalq mühasibatlığa giriş" kitabı 19 fəsildən ibarətdir. Buraya Maliyyə uçotuna aid 16, Vergi uçotuna aid 1 (o cümlədən 14-cü fəsin 6-cı sualı), İdarəetmə uçotuna aid 1 vəMaliyyə hesabatlarının təhlilinə aid 1 fəsil daxildir.

Kitabda verilmiş hər bir mövzu nəzəri (nəzəri məlumatlar, terminlərin izahı, sxemlər,qrafiklər, təsvirlər və s.) hissə və praktiki nümunələrdən təşkil olunmuşdur.

Kitabın nəzəri hissəsi sizə Maliyyə uçotu, İdarəetmə uçotu və Vergi uçotuna dair əsas anlayışları, metodaları, müxabirləşmələri, uçot qaydalarını izah edir. Mövzuların izahı və praktiki nümunələri kommersiya təşkilatlarının prizmasından verilmişdir. Ümumiyyətlə götürdükdə isə kitabın nəzəri hissəsi kommersiya və qeyri-kommersiya təşkilatları üçün ümumi qəbul edilmiş prinsiplər əsasında şərh olunub.

Əgər siz təcrübəli mühasibsinizsə və sizi yalnız işinizə aid olan əməliyyatlar maraqlandırırsa, bu halda siz bütün fəsilləri deyil, yalnız özünüzə aid olan mövzuları oxumaqla kifayətlənə bilərsiniz. Lakin uçot və hesabatın məntiqini dərindən öyrənmək üçün tövsiyyə edirik ki, bütün mövzuları oxuyasınız.

Kitabın sonunda Azərbaycan Respublikası Maliyyə Nazirliyi tərəfindən hazırlanmış"Kommersiya Təşkilatlar üçün Yeni Hesablar Planı" əlavə edilmş, həmçininmaliyyə və mühasibatlığa aid terminlərin mənasını daha tez anlamağa imkan verən terminaloji lüğət və oxucular üçün faydalı ola biləcək həlli ilə birgə nümunəvi məsələlər də verilmişdir.

## Sərbəst hazırlaşərkən kitabdan necə istifadə etməli?

Kitabla sərbəst şəkildə hazırlaşan şəxslərə məsləhət bilərdik ki, paralel olaraq məhz bu kitab əsasında hazırlanmış **"Mühasibatlığa dair məsələlər"**toplusunu da əldə etsinlər. Mündəricatdan sizin üçün maraqlı olan mövzunu tapın. Fəsli tam oxuduqdan sonra İATM-ın nəşri olan ***"Mühasibatlığa***

***dair məsələlər toplusu”*** kitabından həmin mövzuya aid məsələləri cavablandırmağa çalışın.

Kitabla bərabər öz bloknotunuzda müəyyən qeydlər aparmaq, hesablamaları və məsələləri yazılı yerinə yetirmək sizin hazırlıq səviyyənizi bir qədər də artıra bilər. Kitabda verilmiş nümunələrdə hesab nömrələrindən demək olar ki, istifadə olunmamışdır. Yalnız vergi bölməsində və istehsal məsrəfləri bölməsində müəyyən qədər istifadə olunmuşdur. Bunun səbəbi hesab nömrələrinin hər zaman dəyişmə ehtimalının olması, hesabın orijinal adlarının isə heç zaman dəyişməməsi ilə əlaqədardır.

Fikrimizcə, oxucununbu kitablanəzəriyyədən praktikaya doğru uğurlu addımlar atması üçün aşağıdakı 4 tövsiyəyəəməl etməsi vacibdir:

1. Mühasibat uçotunda əsas məqsədin**maliyyə hesabatlarının hazırlanması** olduğunu daimi xatırlamaq lazımdır. Ona görə də ilk növbədə maliyyə hesabatı formalarının tərkibinə daxil olan maddələri bir-bir incələmək, onların mahiyyətini və struktur prinsiplərini analamq vacibdr. Bundan sonra ikili yazılış üsulu ilə maliyyə hesabatının hazırlanmasına başlamaq olar. Unutmaq olmaz ki, ikili yazılış üsulunun tətbiqi maliyyə hesabatının hazırlanması üçün sadəcə bir vasitədir. Tətbiq olunan üsul heç vaxt məqsəd ola bilməz. Təcrübə göstərir ki, çox vaxt tələbələr ikili yazılış üsulunda ilişdikləri zaman əsas məqsədin maliyyə hesabatlarını hazırlamaq olduğunu unudurlar.
2. Maliyyə bərabərliyinə (aktivlər = öhdəlik + xüsusi kapital + gəlirlər – xərclər) sadə bir düstur kimi deyil, uçot və hesabatın kökündə dayanan bir aksioma kimi baxın. Bu düsturun məntiqini dəqiq başa düşsəniz, çətinlik çəkmədən maliyyə hesabatının məhz bu düsturdan qaynaqlandığını görə biləcəksiniz. Həmçinin maliyyə bərabərliyindəki elementləri əzbərləmək deyil, onların hər birinin mahiyyətini anlamağa çalışın. O zaman müxabirələşmə mexanizmini də sərbəst başa düşə biləcəksiniz;
3. Uçotu təzəcə öyrənməyə başlayan şəxslər əməliyyatın qeydiyyatını birbaşa əməliyyat jurnalında deyil, birinci T-hesablarda qeyd aparmaqla, sonradan əməliyyat jurnalına köçürsünlər. Kitabın 4, 6 və 7-cı mövzularında düstur əsasında T hesablarda qeydetmə kifayət qədər aydın şəkildə izah edilmişdir.
4. Hesabları və müxabirələşmələri **əzbərləmək deyil,** onların məntiqini **anlamaq** lazımdır. Debet və kreditə məna verməyə çalışmayın. Bunlar sadəcə hesabın sağ və sol tərəfləridir. Debet və kreditə hesabların artma və ya azalması gözü ilə baxın. Bunun üçün 4-cü mövzuda da izah edildiyi kimi, əməliyyat baş verdiyi anda aşağıdakı düstur vasitəsi ilə 2 sadə sualın verilməsi və onların cavablandırılması kifayət edəcək:



**Sual 1: Aktivdə nə dəyişdi (nə artdı, yaxud azaldı)?**
**Sual 2: Passivdə nə dəyişdi (nə artdı, yaxud azaldı)?**

Tapılan cavabı düstur şəklində verilmiş T hesabda yerinə yazın;

Məsələn, fərz edək ki, müəssisə fəaliyyətə başlamaq üçün **10 000** dəyərində avadanlıqlarla investisiya (kapital) qoyuluşuedir. Aktivdə **nə artdı** sualına əlbəttə ki, **avadanlıq** cavabı, **haradan artdı** sualına isə **nizamnamə kapitalı** cavabı veriləcəkdir. Bu əməliyyatın maliyyə bərabərliyi düsturundakı yazılışı aşağıdakı kimi olacaqdır:

| **Avadanlıq** | | = | **Öhdəliklər** | + | **Nizamnamə kapitalı** | |
|---|---|---|---|---|---|---|
| Debet | Kredit | | | | Debet | Kredit |
| 10 000 | | | **təsir etmir** | | | 10 000 |

İndi isə T-hesablardan bu hərəkəti əməliyyat jurnalına köçürək:

| Hesablar | Debet | Kredit |
|---|---|---|
| Avadanlıq | 800 | |
| Nizamnamə kapitalı | | 800 |

Göründüyü kimi, biz sadəcə artma və azalmanı taparaq yerləşdirdik.

**Müəllimlər əlavə vasitələrdən necə istifadə etməli?**

Hər bir müəllimin dərslikdən əlavə bir sıra digər "silahları" da olmalıdır. Belə ki, bu kitab sizə slaydlar, keyslər vəpraktiki nümunələr kimi vasitələrlə auditoriyanın tələblərini keyfiyyətli şəkildə qarşılamaqda kömək olacaqdır. Həmçinin İATM-ın nəşri olan **"Mühasibatlığa dair məsələlər"** kitabındakı praktik çalışmalar tələbələrlə işləmək üçün daha asan vəsait olacaqdır.

**Video dərslərdən necə istifadə etməli?**

Mövzuların öyrənilməsi zamanı, paralel olaraq İATM tərəfindən www.youtube.com internet səhifəsinə daxil edilmiş "Mühasibat uçotu" dərslərindən istifadə etmənin də çox böyük faydası ola bilər. Xüsusi ilə də ***"Mühasibat uçotunu öyrənməyin və öyrətməyin 4 əsas qaydası"***adlı video dərslər sizin kitabı daha yaxşı anlamağınıza səbəb olacaqdır.

**Kitabın imkanları:**

"Beynəlxalq mühasibatlığa giriş" kitabını yaxşı mənimsəyən hər bir tələbə, oxucu və ya dinləyici beynəlxalq səviyyədətanınan ACCA, CIMA və CIPFA kimi təşkilatların sertifikatlarını əldə etmək üçün əhəmiyyətli addım atmış hesab oluna bilər. Kitab xüsusilə mühasibatlıq sahəsində yerli sertifikatların əldə olunması üçün ən yaxşı vasitədir.